## QEYD VƏ ŞƏRHLƏR

**Qismi-rəsmi**

səh. 594. "Bakı müstəhkəm dairəsi general-qubernatoru": qəzetdə "Bakı dairəsi müstəhkəm general-qubernatoru" getmişdir.

**Teleqraf xəbərləri**

səh. 599. "Baltik səvahili generalı": Rüdiger fon der Qolts nəzərdə tutulur.

"Qoben" [Goeben]: Almaniyaya məxsus hərbi gəmi. 1914-cü ildə başqa bir hərbi gəmi ("Breslau") ilə birgə Türkiyəyə verilmişdi. Türkiyə donanmasında "Yavuz" ("Yavuz Sultan Səlim") adıyla xidmət etmişdir. "Qoben" və "Breslau" Türkiyənin Birinci Dünya müharibəsinə girməsində xüsusi rola malik olmuşdur.

**Qəzetələrdən**

səh. 600. "Çərkəz diviziyası": Çərkəz Süvari Alayı nəzərdə tutulur.

**Türklər və amerikalılar**

səh. 600. "Amerikan Müavinət Komisyonu": Erməni və suriyalılara yardım üzrə Amerika Komitəsi [American Committee for Armenian and Syrian Relief]. Əsası 1915-ci ildə qoyulan təşkilat əvvəlcə Osmanlı imperiyasının erməni və assuriyalı təbəələrinə yardım məqsədi güdürdü. Sonrakı dövrlərdə Yaxın Şərqə yardım üzrə Amerika Komitəsi [American Committee for Relief in the Near East] və Yaxın Şərq Fondu [Near East Foundation] adıyla fəaliyyətini davam etdirmişdir.

**Şimali Qafqaziyada**

səh. 601. "Şimali Qafqaziya Tədafövi Şurası": qəzetdə "Tədafövi" yerinə "Müdafeyi" getmişdir.

**Nəzarətlərdə**

səh. 602. "[İxtilaf Komisyonunda]": anlaşılır ki, bu mətndə bir çox söz buraxılmışdır (güman ki, tərcümə əsnasında); mümkün qədər bərpa etdik.

**Milli mücahidə**

səh. 606. "Rusiyadan miras qalmış olan": qəzetdə "miras" yerinə "bərat" getmişdir.

**İstiqlal müzəsinin açılması münasibətilə**

səh. 606. Bu yazıda "müzə" və "muzey" sözləri qarışıq işlədilmişdir.

**Bakı xəbərləri**

səh. 611. "cəbə ianəsi": şəhərin müxtəlif yerlərində ianə qutusu qoymaqla toplanan ianə.

"Dəniz qırağı": Naberejnaya (indiki Neftçilər prospekti) nəzərdə tutulur.

**Firqə və cəmiyyətlər**

səh. 613. Həsənqulı: Türkmənistanın Balkan vilayətində, Xəzər dənizi sahilində şəhər; indiki Əsənqulı şəhəri.

**Azərbaycanda**

səh. 614. "Hal böylə deyildi": güman ki, "Halbuki öylə deyildi" olmalıdır; qəzetdə belə getmişdir.

"çərək": arşının dörddə biri; 17,75 santimetr.

"Məcnunbəyovun": qəzetdə "Məclumbəyovun" kimi getmişdir.





**Bazar, 30 noyabr 1919-cu il, nömrə 333**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 7 rəbiüləvvəl sənə 1338. 30 təşrini-sani 1919 sənə.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalətın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 3 manat.

Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.

Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.

## MALİYYƏ NƏZARƏTİ TƏRƏFİNDƏN

Maliyyə Nəzarətinin İstiqraz şöbəsi xəbər verir ki, bu ilin 17 sentyabrında "Azərbaycan" qəzetəsinin 198 nömrəsində qərar qoyulmuş elan mövcibincə [elana əsasən], Azərbaycan pullarının Zaqafqaziya pullarına dəyişilməsi Tiflisdə, Potidə və Kutaisdə bununla qət edilir [dayandırılır].

*Şöbə müdiri əvəzində:*
*[Mixail İsayeviç] Rublyov*
*Kargüzar:*
*[Aleksandr Borisoviç] Jarkovski*
*T-370*

## MALİYYƏ NƏZARƏTİ TƏRƏFİNDƏN

Azərbaycan Dövləti Əmanət Sandıqları və Xırda Etibar İdarəsi bununla elan edir ki, həmin oktyabr ayının 11-də Parlaman tərəfindən təsdiq edilmiş Azərbaycan Dövləti Əmanət Sandıqlarının Nizamnaməsi mövcibincə [Nizamnaməsinə əsasən], dekabr ayının 1-dən həmin 1919-cu ildən Bakı şəhərində Kolyubakinski və Vorontsovski küçələrin küncündə, Lalayevin evində Azərbaycan Dövləti Baş Əmanət Sandığı açılır.

Azərbaycan dövləti əmanət sandıqlarına qoyulan pullar dövlətin bütün varidatı ilə təmin edilir və hər bir vaxt təhdidatsız [məhdudiyyətsiz] sahiblərinə qaytarılır. Qoyulan pullara ildə 3,6 faiz hesab olunur.

*Ə[li] A[ğa] Həsənov*
*Azərbaycan Dövləti Əmanət Sandıqları və Xırda Etibar İdarəsi müdiri N[əsir] Tağıyev*
*T-365*

## SİRK "MODERN"

Noyabrın 30-nda sirkin bağlanmağına görə axırıncı tamaşa göstəriləcəkdir. Güləşməyin axırıncı günü və priz paylanmağı. Bu gün güləşən şəxslər cəldlikdə və gücdə priz almağa layiq olan şəxslərdir.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Gənc Əli – Kalişeviç; 2-nci: Qara Maska – Zakoroyko; 3-ncü: Buyvolov – Naməlum.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də, tamamlanacaqdır 12-də. Mübarizə Yelizarovun təhti-nəzarətində olacaqdır.

Dəstənin hamısı və tamam pəhləvanlar Bakı camaatına salam yolladıqdan sonra xudahafiz deyirlər.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Bakı Mahal Kəndçi İttifaqı bununla idarənin üzvü və müvəqqəti xəzinədarı Nasir Əlikərimzadənin vəfat etdiyi xəbərini kəmali-yəs və təhəssürlə [böyük bir matəm və həsrətlə] xəbər verir.

*14097*

**MÖHTƏRƏM TƏBİBLƏRİN VƏ DİŞ HƏKİMLƏRİNİN NƏZƏRİ-DİQQƏTİNƏ**

Yanvar ayının əvvəllərində 1920 sənədə Ümuri-Xeyriyyə Nəzarəti [Sosial Təminat Nazirliyi] tərəfindən nəşr olunacaq "Azərbaycan Cümhuriyyətinin ünvan-təqvimi"ndə Bakıda sakin olan bütün təbiblərin, diş həkimlərinin və həmçinin müalicəxanaların siyahısı dərc ediləcəkdir. Bu siyahıda öz ünvanlarını, xəstələr qəbul olunan saatlarını göstərmək arzusunda olan möhtərəm təbiblər, diş həkimləri və müalicəxanalar zəhmət qəbul edib, həmin dekabr ayının 2-dən gec olmamaq üzrə Ümuri-Xeyriyyə Nəzarətinin "Ünvan-təqvim" nəşriyyatı şöbəsinə təyin olunan 100 rublə gətirməlidirlər.

**"İSTİQLAL" MƏCMUƏSİ MÜDİRİYYƏTİNDƏN**

Cümhuriyyətimizin səneyi-dövriyyəsi [ildönümü] münasibətilə nəşr ediləcək "İstiqlal" məcmuəsinin bir taqım texnik səbəblərlə təxiri, müdiriyyətə məcmuəni daha mükəmməl bir surətdə nəşr etdirmək əzmini təlqin eylədiyindən, məzkur [adı çəkilən] məcmuəyə iştirak edə biləcək mühərrir əfəndilərə ixtar [xəbərdarlıq] olunur ki, Azərbaycanın coğrafiya, topoqrafiya, mə'dəniyyat və ərziyyatına [mədənlərinə və geologiyasına] aid, öylə də ticarət və sənaəti [sənayesi] haqqında elmi və müfəssəl məqalələr yaza bilərlər. Ədəbiyyat və sənayeyi-nəfisə [incəsənət] qisminə yazılacaq mövzulara dəxi yer vardır. Bilxassə teatrolarımız və tarixi haqqında yazılacaq əsərə əhəmiyyət veriləcəkdir. Göndəriləcək məqalələrə, idarəcə qəbul edildikdən sonra, hədiyyeyi-qələmiyyə [qonorar] olmaq üzrə kafi dərəcədə mükafat veriləcəkdir. Məqalələr gələcək yanvarın 15-ə qədər idarəyə təslim edilməlidir:

"Azərbaycan" idarəsi, "İstiqlal" müdiriyyətinə.

*T-361*

**YENƏ KUBAN VƏ KÖNÜLLÜ ORDUYA DAİR**

Kuban və Könüllü ordusunda çıxmış olan ixtilaf indi mövcibi-əhəmiyyət [əhəmiyyət veriləsi] bir şəkil aldı.

Könüllü ordu haqqında zaid bir təvəccöh [həddən artıq rəğbət] bəsləyən Avropa mühiti-siyasisi Kubanda zühura gələn hadisatdan görə bilər ki, bu ordu hərbi və siyasi bir macəradan başqa bir şey deyildir.

Kuban tamamilə məşru [leqal] və qanuni bir surətdə hökumətini təşkil və millət hüzurunda hər surətlə məsul Radasını [Parlamentini] vəz etdikdən [meydana gətirdikdən] sonra, əlbəttə haqqı vardır ki, xarici heç bir qüvvətə möhtac olmadan öz daxili və siyasi ümuruna [işlərinə] hakim olsun.

Kubanın haqqı var idi ki, məmləkətini müdafiə və mühafizə etməyə, daxilən və xaricən idarəsini təqviyə eyləmək [gücləndirmək] üçün hər dürlü müahidələrə [sazişlərə] girsin, Dağıstan ilə ittifaq əqd etsin [bağlasın].

Fəqət buna müqabil Könüllü ordunun heç bir haqqı da yox idi ki, Kubanın üzərinə bir kontrol vəz etməyə [qoymağa] girişib, müahidə əqd edən millət vəkillərini də divani-hərbə [hərbi məhkəməyə] versin.

İştə bir vəqə ki, Könüllü ordunun mahiyyəti-həqiqiyyə və siyasiyyəsini təyinə mədardır [əsas verir].

Kuban öz milli və etnoqrafi dairəsində müəyyən bir əraziyə malik olduğu və bir cinsdən kütləyə sahib bulunduğu halda, doğrudan-doğruya kəndi müqəddəratına hakim olmaq üzrə Radanın səlahiyyəti-qanuniyyəsinə tabe olaraq təyini-müqəddərat etmişdi.

Kubanın bu hüququ, zamanın siyasi əhvalı dolayısıyla da Könüllü ordu tərəfindən də qəbul və təsdiq edilmiş ikən, Dağıstan Məclisi ilə Kubanın əqd etdiyi müahidə Könüllü orduya Kubanın daxili işlərinə müdaxilə etməyə və bəzi əşxası da [şəxsləri də] təhti-məsuliyyətə [məsuliyyət altına] almağa zəmin və fürsət verə bilirsə, şu halda Könüllü ordunun Kuban üçün bir təhlükə və bir düşməndən ibarət olmasına əlbəttə ki, sübut vardır.

Könüllü ordu, Kuban Cümhuriyyəti ilə heç bir əqli-səlimlə düşünən bir adamın qəbul edəmməyəcəyi bir surətdə rəftar etdi. Könüllü ordunun cümhuriyyətlər münasibatına bu dərəcə macəracuyanə [avantürist] hərəkət etməsi nə həqiqi rus demokratiyası üçün məqbul ola bilər, nə də Kuban Cümhuriyyətinin hüquqi və siyasi tələblərini Sülh Konfransında dinləyən Avropa üçün eyi bir təsir verər.

Kuban və Könüllü ordu münasibatı son günlərdəki tövqif [tutma] və həbslərdən sonra daha da qızğın bir şəkil alması möhtəməldir [ehtimal olunur].

General Vrangelin əmri ilə Yekaterinodarda Kalyukov, [Pyotr Leontyeviç] Makarenko, Manjula, Omelçenko, Balabas, Voropinov, Fiskov, Reqans, Juq kimi Radanın məruf [tanınmış] simaları tövqif və həbs edildikdən sonra, şübhəsizdir ki, Kuban bu haqsızlığa təhəmmül edib [dözüb] də Könüllü orduya qarşı bir daha hüsn-nəzərlə baxmaz.

Könüllü ordu, kazaklar kimi həyati-milliyyə və siyasiyyəsini ucuz satmayan bir camaat qarşısında nə qədər də zalım olsa, hissi-nifrət və fikri-düşmənini daha da artdırıb ən qəti və şədid [şiddətli] hücumlar və müharibələrin pişi-tədhişində [təhlükəsi qarşısında] qalmağa məhkum olar.

Əlbəttə, Kuban üzərində yapılan bu təzyiq sair cümhuriyyətlər əfkari-ümumiyyəsində [ictimaiyyətində] də fəna təsirlər hüsula gətirdiyi kimi, ciddi ibrət və intibahları [oyanışları] da cəlb etməkdədir.

Cümhuriyyətlər əfkari-ümumiyyəsinin Könüllü ordu macərasından hər zaman qüvvətli olacağı, mühakiməsi yerində bulunan hər fərd üçün aşkar bir şeydir.

Bilxassə ki, alınan xəbərlərə görə Kulabuxovun Könüllü ordu tərəfindən edama məhkumu və feili-edamın icrası Könüllü orduya dərin bir nifrət və lənəti cəlb etməkdədir.

Bu nifrət və hissi-istikrahı [ikrah hissini] anlamaq istəməyən "Yedinaya Rossiya" qəzetəsi də "Könüllü ordu ilə pis rəftar edən təzə əmələ gəlmiş cümhu-

riyyətlər üçün Kulabuxovun edamı yaxşı bir misaldır" deyir ki, büsbütün əsəbiyyəti-milliyyəmizi təhrik və hissiyyati-siyasiyyəmizi təhyic edir [həyəcana gətirir, coşdurur]. "Yedinaya Rossiya" bilməlidir ki, təzə cümhuriyyətlərin heç biri Kulabuxovun başına gətirilən edam cəzasını bir denikinçinin başına gətirməmişlərdir.

Cümhuriyyətlərin qanuni-mədənisi [mədəni qanunu] siyasi cürmlərə [cinayətlərə] bu qədər də vəhşətlə müqabilə etməyə əsla müsaidə etməmiş, hər siyasi mücrimi [müqəssiri] məhdud bir dairədə buraxaraq təcrid etməklə iktifa [kifayət] edilmişdir.

Fəqət məzkur [deyilən] qəzetə hicab etmədən bizi və cümhuriyyətləri təhdid etməyə yeltənmək [təşəbbüs etmək, can atmaq] qədər bir cürmü, bəlkə də mütəvaffa [mərhum] Kulabuxov da Könüllü orduya qarşı yapmamışdır.

İştə Könüllü ordunun haqq və hüquqdan xaric və hər dürlü insani müamilələrdən [rəftarlardan] kənar hərəkəti ortada durarkən, hankı "Rusiya" ilə münasibati-siyasiyyəyə girişmək mümkün ola bilər?

Fəqət biz zənn ediriz ki, artıq bu müsibətdən Kuban qəti surətdə qurtulmağa əzm etməkdə və Könüllü ordu – Kuban ixtilafı son bir dövrəyə gəlib çatmaqdadır.

Hüquqi-milliyyə və siyasiyyəsinə mətin bir surətdə sarılan hər müstəqil cümhuriyyətlər kimi Kuban da yürüdüyü yoldan dönməmək üzrə gedərsə, bittəb [şübhəsiz], Könüllü ordunun o vəhşət və təzyiqlərinə də nəhayət verilər. İştə, Kuban üçün təmənni etdiyimiz bir qayə!

*Ə[hməd] H[əmdi] [Qaraağazadə]*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 24 təşrini-sani iclası

İclas Həsən bəy Ağayevin sədarəti və Əhməd Cövdətin katibliyi ilə saat 12.20 dəqiqədə açılır.

Sədr məsaili-yövmiyyəni [gündəlikdəki məsələləri] elan edərək, növbədəki məsələnin müzakirəsinə keçmədən əvvəl Gürcüstan Məclisi-Müəssisanı [Təsisçilər Məclisi] tərəfindən keşidə edilmiş olan zeyldə məstur [çəkilmiş olan aşağıda yazılan] teleqrafı oxuyur:

*"Bakı, Məclisi-Məbusan rəisinə.*

*Azərbaycan və Ermənistan cümhuriyyətləri miyanında [arasında] baş vermiş və bütün Zaqafqaziya üçün fəlakətamiz olan müəssif müsəlləh [təəssüf doğuran silahlı] ixtilafı sülh təriqi [yolu] ilə həll etmək üçün Gürcüstan paytaxtına gəlmiş olan Azərbaycan və Ermənistan hökumətləri nümayəndələrinin Yusifbəyli, Hacınski və Xatisov şəxsində Gürcüstan Məclisi-Müəssissnın 21 təşrini-sani tarixli iclasına bərabər gəlmiş olduqlarını nəhayət dərəcə məmnuniyyətlə qeyd edərək, Gürcüstan Məclisi-Müəssisanı Azərbaycan və Ermənistan Məclisi-Məbusanlarını təbrik və təhniyatlə [alqışlamaqla], qəviyyən [möhkəm] etiqad edir ki, hər iki cümhuriyyət vətəndaşları Zaqafqaziya cümhuriyyətlərinin mənafeyinin birliyini dərklə, qəti surətdə etilafa [razılığa] gələr və bununla bütün Zaqafqaziya demokratiyasının [xalqının] rifahi-halı üçün möhkəm sülh və birlik əsası qoyarlar.*

*Gürcüstan Məclisi-Müəssisanı müavini-rəisi: [Simon] Mdivani"*





Sırada pivə bişirilməsindən alınan vergi miqdarının və pivə spirtosunun artırılması haqqındakı layiheyi-qanuniyyə isə də, məruzəçisi hazır olmadığından, ikinci növbədə yazılmış və 600 milyon manatlıq dövləti kağız pul buraxılması haqqında olan qanun layihəsinin müzakirəsinə keçilir. Bu məsələ eyni iclasın gurultulu bir surətdə keçməsindən əlavə, 2-ci iclası da tamamilə işğal edib yenə də qurtarmamaq dərəcəsində uzun müzakirə və münaqişələrə bais olmuşdur. Təşrini-saninin 24 və 27-də bütün iclaslar bu məsələyə həsr edilərək, ümum firqələrin rəisləri hərəsi iki-üç dəfələrlə uzun nitqlər irad etdilər [söylədilər]. 27 təşrini-sani iclasında Maliyyə naziri Əliağa Həsənzadə cənabları saat yarım imtidad [davam] edən bir nitqində natiqlərə cavab və maliyyə işləri haqqında izahat versə də, müzakirat bununla bitməyərək yenə gələcək iclasa təxir etdirilir.

Məruzəçi sifəti ilə Rza bəy Ağabəyov böylə məruzə verir:

**Ağabəyov** - Əfəndilər, hökumətin 25 sentyabr və 4 noyabr 1918 tarixli qərardadı mövcibincə [qərardadına əsasən] 90 və Parlaman dövründə 1919 sənəsi mayıs ayındakı qərarı mövcibincə 510 olmaq üzrə bu vaxtadək Azərbaycan hökuməti tərəfindən 600 milyon manat kağız pul buraxılmışdır. Bu pullar 1919 sənəsi iyun ayında qurtarmışdır. Halbuki hökumətin məxarici get-gedə artır. Çünki bələdiyyə idarələri, neft mədənləri və sairə kimi təşkilat və müəssisələr hökumətdən külli miqdarda müavinəti-nəqdiyyə istəyirlər.

Bundan əlavə, məlumunuzdur ki, axır zamanda məvaciblər dəxi çox artır. Binaənileyh [ona görə], hökumət yenidən 600 milyon manat kağız pul kəsməyə izn istəmək məcburiyyətindədir. Bu məqsədlə də Maliyyə Nəzarəti bir layiheyi-qanuniyyə tərtib verib Məclisi-Məbusana təqdim etmişdir.

Bu layihə komissiyada müzakirə edilən zaman layiheyi-qanuniyyə haqqında Maliyyə Nəzarəti bizə bəzi məlumat vermişdir ki, ona istinadla mən də sizə bir qədər izahat vermək istərdim.

Maliyyə Nəzarətinin verdiyi məlumatdan anlaşılır ki, bu il oktyabr ayının əvvəlinədək bizim ümum məsarifimiz 1 milyard 612 milyon 500 min manat olmuşdur.

Bu hesab zahirdə böyük görülür. Fəqət rəqəmlər analiz edilərsə anlaşılar ki, bu məbləğin az bir qismi cari xərclərə sərf olunub, yerdə qalan böyük qismi isə fövqəladə məsarifata getmişdir.

Həman fövqəladə məsarif bu maddələrdən ibarətdir:

Əvvəla, sabiqdə buraxılmış olan məbləğdən 382 milyon neft mədənçilərinə verilmişdir, neft rəhni ilə. Bu surətlə, həman məbləğ müqabilinə mədənçilərin nefti cavabdehdir.

Saniyən [ikincisi], 110 milyon bir, 67 milyon manat da bir olmaq üzrə cümlətanı 177 milyon manat da ingilislərə verilmişdir. Bu barədə ingilis komandanlığının kağızı da var ki, bu pulu borcluyuz.

Salisən [üçüncüsü], eyni məbləğdən 40 milyon manat Dağıstana borc verilmişdir. Bu surətlə, həman fövqəladə məsarifat hesab ediləcək olarsa, görərsiniz ki, bizim adi məxaricimiz 593 milyon manatdan ibarətdir ki, bu da çox deyildir.

Digər tərəfdən, buraxılmış olan pulu və məsarifi örtmək üçün varidat dəxi artır. Məsələn, oktyabrın 1-dək 249 milyon vergi daxil olmuşdur və getdikcə vergilərin vüsulu [gəlib çatması] artmaqdadır. Maliyyə Nəzarəti əlbəttə ki, xəzinə varidatının artmasına və gəlirin çox vüsul olmasına çalışır, getdikcə camaat dəxi vergiləri əda etməyə [verməyə] adət edir, fəqət bir məsələ var. Ərz etdim ki, vergidən 249 milyon manat varid [daxil] olmuşdur. Ancaq bu mədaxilin çoxu vasitəli vergidən olub, vasitəsiz azdır. Məsələn, vasitəli vergidən oktyabrın 1-dək ancaq 17 milyon manat vüsul olmuşdur. Bu surətlə görürsünüz ki, vasitəsiz verginin miqdarı pək azdır və bir qədər artarsa camaat heç zərər çəkməz, bilxassə ki, vasitəsiz vergi varlılardan alınır. Məsələn, gəlir vergisinin cümlətan dəxli 12 milyon manatdır. Bu vergini neçə qat artırmaq olar. Sonra ticarət və sənaye vergisi pək azdır, bu da arta bilər. Ələlxüsus ki, bu vergilərin həpsi 1917-ci ildə son dəfə olaraq artmış və o vaxtdan bəri vergilər artırılmamışdır.

Bundan əlavə, irsdən alınan verginin miqdarı cümlətanı 1 milyon 237 min manatdır. Bunu da çox artırmaq olar. Bu surətlə, əfəndilər, əgər xərcimiz çox isə, dəxlimizi də çoxaltmaq olar. Bunu da ərz etməliyəm ki, axır zamanlar vasitəli vergilər dəxi artmaqdadır. Məsələn, gömrük çox artır. Maliyyə Nəzarəti xəbər verir ki, noyabr ayının 1-dən 15-dək gömrükdən 7 milyon 34 min manat vüsul olmuşdur ki, bu da ayda 15 milyon eylər.

Digər tərəfdən, məxaric maddələrindən bəziləri də əskilir. O cümlədən neft mədənçilərinə verilən müavinəti-nəqdiyyə azalır, çünki hökumətimiz buraxdığı pul müqabilinə neft aldığından, mədənçilər yavaş-yavaş müavinəti-nəqdiyyədən boyun qaçıraraq pul istəmirlər. Bu dərəcəyə çatmışdır ki, qabaqda mədənçilərə ayda 50 milyon verilməkdə ikən indi 30 milyona düşmüşdür. Hətta mədənçilər hökumətə olan borclarından 30 milyon manatını qaytarıb vermişlərdir.

Bir də, ingilis əsgərlərinin dəmiryollarımızdan istifadə etmələri səbəbi ilə ingilis komandanlığı bizə 50 milyon manat borclu idi. Şimdi haman məbləği verməyə başlamışlardır.

Xülasə, əfəndilər; oktyabr ayının 1-dək Azərbaycan hökuməti tərəfindən 1 milyard 77 milyon manatlıq kağız buraxılmışdır. Bundan əlavə 600 milyon manat buraxılması haqqındakı layihənin müzakirəsi əsnasında yenə də bir qədər pul buraxılmışdır. Çünki hökumət ixtiyarında olan məbləğ iyun ayında qurtarmış imiş və yeni pul buraxılmadığı təqdirdə işlər yatacaqmış. Digər tərəfdən, bu layiheyi-qanuniyyə öz vaxtında hazırlanıb təqdim edilmişdir, fəqət komissiyada müzakirəsi ləngə düşmüşdür. Komissiya özü də boynuna alır ki, layihənin ləngə düşməsində müqəssirdir. Bu vəchlə [beləliklə], hökumətin pula ehtiyacı olaraq, layiheyi-qanuniyyənin qəbul və təsdiqindən qabaq 434 milyon manat buraxmışdır. Belə ki, şimdi 600 milyon manata izn veriləcək olarsa 600 deyil, ancaq 166 milyon manat buraxılacaqdır.

Maliyyə-büdcə komissiyası bu layiheyi-qanuniyyəni müzakirə edərkən əmri-vaqe [fakt] qarşısında həqiqəti-halı nəzərə alaraq qəbul edilməsini təhtiqərara almışdır.

Burasını da ərz etməliyəm ki, buraxılan pulların hamısı xərclənib qurtar[ma]mışdır, bu məbləğdən 80 milyon manat Tiflisdə, 233 milyon manat xəzinələrdədir. Sair yerlərdə də bir qədər pul var.

Bir də, əfəndilər, bu məbləğin buraxılması pulumuzun kursunun düşməsinə də bais ola bilməz. Çünki hökumətin qərardadına görə, bundan böylə 25 faizi bilamükafat hökumətə çatmaq şərti ilə xammalların ixracına müsaidə verilmişdir. Bundan 1 milyard manata qədər mədaxil gözlənir ki, bu da hökumət və xəzinəmiz üçün qızıl fond təşkil edər.

*(Mabədi var)*

**TELEQRAF XƏBƏRLƏRİ**

*(Azərbaycan simsiz mövqifi tərəfindən alınmışdır)*

**28 təşrini-sani**

*(Bolşevik xəbərləri)*

**Hərbi əməliyyat**

Narva dairəsində bizim hissələrimiz şiddətli vuruşmadan [sonra] Narvadan 10 fərsəx cənuba bir neçə kənd işğal edib, 500-dən yuxarı əsir, 4 mitralyoz, araba və silah almışlardır.

Pskov dairəsində silah atışması vaqe olmaqdadır.

Qərbi Dvinada kəşfiyyat əməliyyatı.

Kiyev dairəsində Kuzlisa şəhərinin 10 fərsəx şimalındakı kəndi və Qastonayı işğal etməkdən ötrü bizim hissələrimiz ciddi vuruşmadadırlar.

Sunja dairəsində - Sunja şəhəri cənubunda ciddi vuruşmalar vardır.

Belqor cəbhəsində bizim hissələrimiz Oboyandan 15 fərsəx cənubdakı kəndlərin xəttlərinə qədər hərəkət edərək Rjava mövqifini [stansiyasını] işğal etmişlərdir.

Liski cəbhəsində - Liski mövqifindən 15 fərsəx cənuba vuruşmalar gedir.

Novoxopyorsk dairəsində bizim hissələrimiz Novoxopyorskun 45 fərsəx cənub-qərbində olan kəndləri vuruşma ilə işğal etmişdir.

Don ilə Volqa arasında bizim hissələrimiz vuruşma ilə Tsaritsından 25-35 fərsəx şimal-şərq və şimal-qərbdə olan Ranok kəndi yaxınlığında olan Tırnovo kəndi xəttinə çıxaraq ciddi surətdə Tsaritsın üzərinə hücum etməkdədir.

Kokçetsk dairəsində bizim yürüş edən hissələrimiz Akmolinskdən şimala 110 fərsəx cəbhə boyunda hərəkətdədirlər.

Sibirya dəmiryolundan cənuba Tamirovka kəndindən 90 fərsəx cənub-qərbdəki xəttlərə çatıb 1500 əsir almışız.

İvanovskun işğalı əsnasında tərəfimizdən 5 parovoz, bir çox miqdarda qatar, 100 əsir alınmışdır.

**Bolqariya sülhünün təfsilatı**

Lion - Bolqariya müvəkkili Stamboliyski tərəfindən imza edilən sülh müahidənaməsi [sazişi] aşağıdakı maddələri havidir [ehtiva edir]:

Bolqariya Frakiyadan imtina edir və Serbiya sərhədinin şimal-qərb ərazisindən bir hissəsini Serbiyaya güzəşt edir. Ordunun 20 minə qədər ixtisar edilməsi

kimi Bolqariya 2 milyard 250 milyon təzminati-hərbiyyə verməlidir.

**Misir Milli Komitəsinin etirazı**

Nauen - Öz istiqlaliyyətlərini mühafizəyə çalışan Misir xalqı üzərində İngiltərə qoşunlarının təzəllümü [zülmü] və İngiltərə məmurlarının vəhşiyanə rəftar etmələri əleyhinə etiraz olaraq Misir Milli Komitəsi Fransa və İsveçrə qəzetələrinə vurduğu teleqramla müraciətdə bulunmuşdur.

**Maxno dəstəsinin yürüşü**

N. ordusu qərargahı - Fərarilərin dediklərinə görə, Maxno dəstələrinin yaxınlaşması münasibətilə Rostov və Taqanroq şəhərləri təxliyə edilməkdədirlər.

**Yaşılların Denikin arxasında müvəffəqiyyəti**

N. ordusu qərargahı - Qafqaziyadan varid olan [gələn] yoldaşın rəvayətinə görə, Yaşılların hərəkatı geniş bir dairə kəsb etmişdir. Qroznıda Yaşıllar tərəfindən Denikinin iki cəza alayı münhəzim [məğlub] edilmiş, 6 top və neçə mitralyoz almışlardır.

**Avropada kömür qəhətliyi**

Helsinqfors [Helsinki] – Fransada tənsiqat [yanacaq] yoxluğundan naşi [ötrü] bir çox fabrikalarda işlər saxladılmışdır. İtaliya şəhərində kömür qəhətliyi gündən-günə kəsbi-şiddət etməkdədir [şiddətlənməkdədir].

**Müxtəlif xəbərlər**

London - Helsinqforsdan verilən xəbərlərə nəzərən, general Denikin Oryol ilə Tambov arasındakı bolşevik cəbhəsini yarmışdır.

- Macarıstan Milli Şurasına olacaq intixabat [seçkilər] gələn sənəsi yanvarına qədər təxir edilmişdir.

**Türkiyə ilə sülh**

Avam Kamerasında verilən sorğulara ki: "Hal-hazırda Osmanlı dövləti ilə sülh əqd edilməsinin [imzalanmasının] təsrisi [sürətləndirilməsi] üçün Düvəli-Müttəfiqə və mötəlifəyə [Antanta dövlətlərinə] təqdimatda bulunmaq olarmı; zira, Britaniya imperiyası mənafeyi bu məsələnin təxir edilməsi ilə əmiqən [dərindən] əlaqədardır; və mümkün olmazmı ki, Amerikanın çıxmasına görə, Türkiyə ilə sülh əqd etmək iqdamatı təsri edilsin [təşəbbüsləri sürətləndirilsin]?" – mister Lloyd Corc cavab olaraq söyləmişdir ki:

*"Britaniya hökuməti Türkiyə övzasını [vəziyyətini] həll və fəsl etmək [həll edərək başa çatdırmaq] üçün toplanacaq ictimanı [yığıncağı] səbiriszliklə bəkləyir və bu münasibətlə Düvəli-müttəfiqə və mütəlifə ilə əlaqəyə başlamışdır. Türkiyə ilə səriyyən [tezliklə] sülh əqd edilməsi yalnız Britaniya imperiyasının deyil, bütün cahanın mənafeyinə xidmət edər bir məsələdir."*

## CÜMƏ GÜNKÜ MÜXTƏLİF XƏBƏRLƏR

**Dəmir firqə Baltikdən qayıdır**

Berlindən xəbər verirlər ki, Baltikdəki Dəmir firqə qayıtmağı qərara almışdır.





Onun şimdi nərədə olduğu məlum deyildir.

**Amerika və Almaniya**

Berlin mətbuatı təbliğat yaparaq, Amerikanın Versal müahidənaməsini [sazişini] imzalamaqdan imtina etməsi ilə Almaniya millətinə siyasi və ya iqtisadi bir fayda verə biləcəyi rəyinə zahib olmasından [düşüncəsinə yanlışlıqla qapılmasından] Almaniya əhalisini saqındırır.

**Almaniya prezidenti**

Almaniya Cümhuriyyəti prezidentliyi namizədliyinə atidə əsamisi mündəric zəvatı [aşağıda adları yazılan şəxsləri] qeyd edirlər:

Sosialistlər tərəfindən Ebertin adı çəkilir; milliyyətpərvərlər isə Hindenburqu istəyirlər. Mülkədarlar da Damaşkenin namizədliyini qaldırırlar.

**İtaliya Məclisi-Məbusanında**

İtaliya Məclisi-Məbusanında sol firqələrin bir ittifaq (blok) yapacağı ehtimal edilir. 47 radikal, 22 sosialist və 15 cümhuriyyətçilərdən bu ittifaqa Bissolati liderlik edəcəkdir.

**İngiltərə Hərbi Kabinəsi**

Londrada xüsusi Hərbi Kabinə ləğv edilib, Hərbiyyə Nəzarəti indində [nəzdində] 20 üzvdən ibarət bir komissiya ilə əvəz edilmişdir.

**Mustafa paşanın həbsi**

Sabiq Bursa valisi və Hərbi Məhkəmə üzvü [Nəmrud] Mustafa paşa İstanbulda həbs edilmişdir.

**Mühüm bir ixtira**

İsveç mühəndisi Sednesner bir aparat ixtira etmişdir ki, bir şeyin rəsmini alarkən, eyni zamanda onun hərəkət və sədasını da götürür.

**Almanları mühakimə**

Müharibə qəvaninini müxtəl edən əşxasın [müharibə qanunlarını pozan şəxslərin] doğru siyahısını tutmaq üçün Məclisi-Ali tərəfindən təyin edilmiş komisyon Versal müahidənaməsinin [sazişinin] 229-cu maddəsinə müvafiq müvəqqəti məhkəmələr planı da tərtib edəcəklərdir.

**Bolqariya nə qeyb edir**

Məclisi-Alinin son qərarına görə Bolqariya Trakiyanı, Strumçeni və Tsaribrod ilə bir məntəqə ərazisini qeyb edir.

**Yaponiya və admiral Kolçak**

Yaponiya Hökuməti baş müvəkkili admiral Tanaka müzakirata başlamaq üçün admiral Kolçakın qərargahına vürud etmişdir [gəlmişdir].

**Cəmahiri-Müttəfiqə intixabatı**

Nyu-York Cümhuriyyətinin son hökumət seçkisində cümhuriyyətçilər demokratlara qalib olmuşlardır.

**İtaliya Məclisi-Məbusanı**

Roma - Kanuni-əvvəlin [dekabrın] birinə təyin edilmiş Məclisi-Məbusan güşadı [açılışı] təxir ediləcəkdir.

**Misirdə**

Qahirə - Yeni kabinə Maliyyə naziri [Yusif] Vahba paşanın nəzarəti altında təşəkkül etmişdir.

**Bolşeviklər və qonşuları**

Paris - Estlanda səfarəti [Estoniya səfirliyi] xəbər verir ki, bolşeviklər Fin körfəzində olan donanmlarını təslim edib, Rusiya ilə qonşu hökumətlər arasında bitərəf məntəqə təyin etməyə hazır olduqlarını izhar etmişlərdir.

**İtaliya makinaları**

Roma - Londona avtomobil sərgisinə göndərilmiş İtaliya makinaları haqqında İngiltərə mətbuatı artıq təriflər yazırlar.

## DAĞISTANDA

**Dərbənd altında**

"Volnı qorets" qəzetəsinin xüsusi müxabiri yazır:

*"Düşmənin güclü qüvvəsi altında dağıstanlılar hissələri Rukel və Kemax kəndlərini təxliyəyə məcbur idilər.*

*Petrovskiyə kalmıklar firqəsi və qeyri rus alayı varid [daxil] olmuşdur. Axırıncı məlumata nəzərən, dağıstanlıların əks-hücumu ilə yenidən dabravollar Dərbənd tərəfinə atılmışlardır. Yandırılmış və təxrib edilmiş Rukel və Kemax kəndləri dağıstanlılar tərəfindən geri alınmışlardır. Əsir və hərbi qənimət alınmışdır."*

## VÜKƏLA ŞURASINDA
## [NAZİRLƏR KABİNETİNDƏ]

Maliyyə nazirinin hökumətin 1919-cu sənə məxaric büdcəsi haqqında təqririni istema [rəsmi müraciətinin dinlənməsi] nəticəsində qərara alınmışdır ki:

1) Hərbiyyə, Ticarət, Sənaye və Ərzaq, Dövləti Tədaföi, Məsai, Səhhəti-Ümumiyyə və Ümuri-Xeyriyyə və Nafiə, portfelsiz nazir, Maliyyə, Xariciyyə, Maarif, Ərazi nəzarətlərinin 1919-cu il məxaric büdcəsi təsvib [təsdiq] edilsin.

2) Ədyan [Dini Etiqad] nazirinin 1919 sənəsi büdcəsi bərvəchi-ati təbdil ilə [aşağıdakı kimi dəyişdirilməklə] təsvib edilsin:

Məşixət [Şeyxülislamlıq] İdarəsi sədrləri Şeyxülislam ilə müfti həzrətlərinin maaşları nazir müavinləri maaşları ilə müsaviləşdirilir. İşbu sənənin təmmuzu [iyulu] 1-dən etibarən mümaileyhlərə [adı çəkilən şəxslərə] maaşi-məzkur [deyilən maaş] təyin edilsin.

Daxiliyyə nazirinin 1919-cu sənə məxaricat büdcəsi bərvəchi-ati dəyişmələrlə təsvib edilsin:

Qubernatorlar və Bakı qradonaçalnikinə dövləti ev, işıq, yanacaq və xəzinədən yol məxaricatı verilsin.

Dövləti dəftərxana büdcəsi bərvəchi-ati dəyişmələrlə təsvib edilsin:

1-ci fəslin 13 maddəsi - məxaric məbləğini 90 min manata qədər, bütün qaraj məbləğini 1.075.467 manata qədər azaltmalıdır.

Posta-Teleqraf Nəzarəti büdcəsi bərvəchi-ati dəyişmələrlə təsvib edilsin:

1) Şəki şəhər posta-teleqraf şöbəsi qapansın;

2) 28 nömrəli fəslin birinci maddəsi mövcibincə [maddəsinə əsasən] məxaric 153.403 manat olmaq üzrə 5 faiz azalsın.

Ədliyyə Nəzarəti büdcəsi təsviblə bərabər, İstinaf Məhkəməsi [Məhkəmə Palatası] məmurları miqdarının azalması arzu edilir.

Türüq və Məabir [Rabitə və Nəqliyyat] Nəzarəti büdcəsi bərvəchi-ati dəyişmələrlə təsvib edilsin:

Dəmiryolları İdarəsi 125 nömrəli fəsli 332-1-nci maddəsi mövcibincə Azərbaycan Dəmiryollarının ticarət cəhətincə eyiləşməsi üçün olunacaq məxaricatı 20 milyon manat azalsın. 125 nömrəli 32-2 maddəsi mövcibincə Azərbaycan Dəmiryolları üçün ehtiyat materialları almaq məbləği 5 milyon manat azalsın. 126 nömrəli fəsil 56-1-nci maddəsi mövcibincə Bakı-Culfa dəmiryolları təmiri məxaricatı 20 milyon manatla azalsın.

Maliyyə Nəzarətinə dövləti məxaricat büdcəsini dəyişmələri ilə cümlətanı 1.550.554.393 manat məxaric olmaq üzrə təsdiqdən ötrü Məclisi-Məbusana idxal etməsi tapşırılsın.

Maliyyə nazirinin 1919 sənə mədaxil büdcəsi haqqındakı təqriri [isteması] nəticəsində, bərvəchi-ati dətişmələrlə təsvibən Məclisi-Məbusana idxalı qərara alınmışdır:

Maliyyə Nəzarətində

1) Neft rüsumu 186 milyon manat artırılsın.

2) Buraxılacaq malların gömrüyü 20 milyon manat artırılsın.

Türüq və Məabir Nəzarətində

Dəmiryolları tarifəsi təzayüd etdiyi [artdığı] üçün gəlir 20 milyon manat artırılsın.

Ticarət, Sənaye və Ərzaq Nəzarətində

Təsadüfi mədaxil 199.999.000 manatla azaldılsın.

* * *

Daxiliyyə nazirinin, Gəncə Bələdiyyə İdarəsinə intixabat [seçki] məxaricatı üçün 200.000 manat buraxılması haqqındakı təşəbbüsatına dair təqriri nəticəsində məzkur [deyilən] bələdiyyə idarəsinin istədiyi 5 faizli 1.399.447 manat istiqraz hesabına olaraq 70 milyonluq fonddan istənilən məbləğin buraxılması təhti-qərara alınmışdır.

## NƏZARƏTLƏRDƏ
## [NAZİRLİKLƏRDƏ]

**Qaçqınlar üçün taxıl**

Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Qazax qəzasında toplanmış qaçqınlar üçün taxıl almağa Gəncə Nahiyə Müfəttişliyinə 200 min manat göndərmişdir.

**Roulendsonun proklamasiyası**

Miralay [polkovnik] Roulendson vaxtilə dağıstanlılara xitabən bir proklamasiya [bəyannamə] nəşr etmişdi. İşbu proklamasiya bir çox güft-guya [söz-söhbətə] səbəb olduğu və şayiata görə, İngiltərənin Qafqaziya siyasətinə zidd getdiyi üçün Xariciyyə naziri, [Oliver] Vordrop cənablarına müraciətlə, proklamasiyanın İngiltərə siyasəti ilə nə qədər əlaqədar olduğu haqqında istizahatda bulunmuşdur [izahat tələb etmişdir].

Buna Vordrop cavab vermişdir ki, bu xüsusda Londradan isticvabda bulunmuşdur [cavab istəmişdir]. Fəqət, kəndi əlində olan məlumata görə, proklamasiya İngiltərə hökumətinin nəzəriyyatına müfaviq deyildir.

* * *

Məsai [Əmək] Nəzarətinin Mürafiə [Məhkəmə] şöbəsi müdiri Nəzarətə bir müxtirə [yazılı müraciət] təqdim edib məlum etmişdir ki, müəssisədarlar son

zamanlar Nəzarətin qərardadlarını qəbul etməkdən çox vaxt imtina edirlər ki, bu da Nəzarətin işlərinə xələl yetirə biləcəkdir.

Binaənileyh [ona görə], müdir Vükəla Şurası zimnində [nəzdində] böylə vaxtlarda hökumət tədabiri ittixazı [tədbirləri görülməsi] haqqında Məsai orqanlarına icazə verilməsinə dair iqdamatda [təşəbbüsdə] bulunmağı rica etmişdir.

## MİLLİ MÜZƏMİZ

Yeni təsis edilmiş müzənin adını "İstiqlal müzəsi" qoymuşlardır. Yəni istiqlal uğrunda millətin təşəbbüslərini sübut edəcək şeyləri buraya toplayıb da, bu yolda yapılmış fədakarlıqları dünyada hələ baqi qalmış asar [qalan, mövcud olan əsərləri] və dəlilləri ilə göstərəcəklər. Ən gözəl bir məqsəd!

Fəqət, Azərbaycanda öylə əski şeylərdən bir əlamət qalmışdırmı?

İndiyədək müzəyə yığılmış şeylər arasında öylələrinə rast gəlmədik. Olsun ki, böyük bir ölkənin ətrafına atılıb qalmış və bəlkə də unudulmuş bu şeylərdən bəziləri tapılsın. Ehtimal ki, heç bir şey tapılmasın. Lakin bu şeylərin miqdarı tarixi vəqələrin nisbəti ilə əlaqədardır. Yəni, istiqlal və hürriyyət yolunda görülmüş işlərin hər birinə məxsus bir əlaməti olmalıdır.

Burada iki sual varid olur [əmələ gəlir]:

1) İstiqlal yolunda tarixi cərəyanlar baş vermişmi?

2) Bu tarixi cərəyanların əlamətləri vətənimizdə vardırmı?

Təbii ki, birincilər olmasaydı ikincilər də meydana çıxmazdı.

Pəs [elə isə], burada öhdəmizə düşən təklif – bildiyimiz qədər həman vüquat [hadisələr] və cərəyanları göstərməkdir ki, şayəd bunların əlamətlərindən bəziləri vətəndaşlarımızın sandıqlarında baqi qalmış ola.

Məlum olduğu üzrə, Azərbaycan türkləri bugünkü istiqlala nail olmaq üçün dünyada misli görülməyən iki böyük istibdad tərəfdarı ilə çarpışmışlar: biri İran və biri də Rusiya istibdadıdır.

İran istibdadının ömrü çox uzun sürməyib, onun "Divi-səfidi" [Ağ divi] məqamında bulunan Ağa Məhəmməd Şah Qacarın qətli ilə tamam edilir.

Rusiya istibdadına gəldikdə, o da general Sisianov kimi "Əhrimən"i qətl edilmişsə də, yerinə sair əhrimənlər göndərilib yüz ildən artıq, bolşeviklərin Bakıdakı izmihlalına [süqutuna] qədər davam edə bilmişdir. Rusiya istibdadının ömrü uzun sürdüyü üçün, təbii ki, asar [əsərləri, izləri] və əlamətlər də çox qalmış ola bilər.

Bu istibdad çarpışmalarında ən böyük rolları o vaxtda Şuşa qalası (Pənahabad), Gəncə və Bakı şəhərləri oynadıqları cəhətlə, asar və əlamətlərinin əxzi [əldə edilməsi] üçün də oralara müraciət etməlidir.

Azərbaycanın ən cavan şəhəri Pənahabad (Şuşa) şəhəri özünün 50 illik təsisindən sonra istibdad çarpışmasında öylə bir qəhrəmanlıq göstərə bilmişdir ki, Gürcüstanın min illik Tiflisi də bunun icrasında aciz qalmışdır. Tiflisi qan dəryasına döndərmiş olan Ağa Məhəmməd şahın öhdəsindən köhnə Gürcüstan gələ





bilmədi. Oradan Qarabağa, o "tərlan yuvası" Pənahabada doğru yürüş açdı. Şəhəri aldı, Tiflisin başına gətirdiyini bunun da başına gətirmək istədisə də, bir neçə Qarabağ cavanları şahın yatağına hücum edib əyri qəmə ilə onu qətlə yetirdilər. Bu minval ilə Azərbaycan ilə tamam Qafqaz əhalisi bu istibdad şərarətindən [şərindən; fitnəsindən] azad edildi. Şahın başı kəsilib Car və Balakən tərəfinə qaçmış İbrahim xana göndərildi. Rəvayətə görə, Məhəmmədhəsən ağanın evində bir daş vardır ki, məqtul şahın qanı həman daşın üstə tökülmüşdür. Hətta şahın qatili Səfər bəyin qanlı qəməsi bir xanədanda olduğunu söyləyirlər (kimdə olduğunu öyrənəmmədim).

Azərbaycanda türk şüərasının babası mənzələsində [yerində] bulunan Molla Pənah Vaqif də şahın qəzəbinə giriftar olanlardan biridir. Hərçənd Vaqifin şəhadəti Ağa Məhəmməd Şahın qətlindən sonra icra edilmişdir, lakin şairin tutulub zindana salınamsına və sonra da öldürülməsinə şah özü bais olmuşdur. Öylə ki, rəvayətə görə, Ağa Məhəmmd Şah Pənahabad qalasını təsxir edə [ələ keçirə] bilməyib, Firdovsidən götürülmüş:

*"Ze məncəniğe-fələk əbre-fitnə mibarəd*

*To əbləhane gerefti miyane-şişe həsar"*

beytini bir ox ucuna yazıb İbrahim xanın Daşaltındakı evlərinə atdırmışdır.

Buna cavab olaraq xanın mirzəsi Molla Pənah da:

*"Gər negəhdare-mən anəst ke mən midanəm*

*Şişera dər bağəle səng negəh midarəd"*

beytini yazıb şah tərəfinə tullamışdır.

Bu fəqərədən [hadisədən] sonra Ağa Məhəmməd şah and içmişdir ki, qalanı təsxir edəcəyi halda Molla Pənahı qənarədən [qarmaqdan] asdırsın.

Molla Pənahın qəbri Şuşa qalasında "Molla Pənah günbədi" adı ilə məşhurdur.

Bu fəqərələrdən bir çoxu asarsız buraxılmışlarsa da, yeni mühərrir və rəssamların məşq və sərlövhələrinə yarar, hədsiz və qiymətli maddələrdir ki, yazı və rəsm halında da da müzəyə daxil edilə bilər.

İran istibdadından azad olmuş azərbaycanlılar bu dəfə Rusiya istibdadına məruz qalırlar.

Gürcüstan işini bitirdikdən sonra general Sisianov Gəncə üstünə hücum edir. Buna qarşı müqabilə edilirsə də, rusların hədsiz qoşunu qalib gəlib Gəncənin küçələrində türk qanını sel kimi axıdırlar. Meydanda tək qalmış qəyur [qeyrətli] Cavad xan əzmindən dönməyərək top üstündə əlində qılınc üzərinə hücum edənlərlə mübarizə edirdi. Topun üstündə də bu dilavər [mərd] türkü qətlə yetirdilər. Sair məqtullarla bahəm Şah Abbas məscidinin səhnində [həyətində] dəfn edilmişdir.

Gəncə əhlinin böylə mərdanə qarşılığı Sisianova xoş gəlmədiyi üçün şəhərin adını "Yelizavetpol" qoymuşdur. "Gəncə" ləfzini [sözünü] hankı bir türk ağzına alırdısa, filfövr [dərhal] o vaxtın bir rubləsi ilə cəzalandırılırdı. Cəzanın dərəcəsi sonra daha şiddət etdi. Məscid hücrələrində iqamət edərək, general Sisiyanov Bakı səfərinə hazırlanırdı.

Rəvayət edirlər ki, bunun xəyalı ilə uğraşıb fikrə qərq olduqları qaranlıq gecələrdə bir it gəlib hücrə damında ulayırmış. Bu macəra hər dəfə təkrar edildiyi cəhətlə bunu fali-bəd [uğursuzluq əlaməti] hesab edib xoşlanmayan gene-

ral, axirüləmr [nəhayət] itin öldürülməsinə hökm verdi.

Nə isə, Bakı səfərinin talesizliyini general Sisianov anlamışdı. Öylə də oldu. Bakı darvazalarına yaxınlaşarkən, Hüseynqulu xanın müqərrəbləri [yaxın adamları] general Sisianovu tapança ilə qətlə yetirdilər. Lakin bununla azərbaycanlılar rus istibdadından azad olmadılar. Məqtul generalın yerinə ayrısı göndərildi. Hüseynqulu xan da İran səmtinə fərar etməyə məcbur oldu.

Bu üç şəhərdə hələ indiyədək övladı baqi qalmış xanların və xanzadələrin yəqin ki, babalarından qalma bir çox əski şeyləri vardır. Bunlara müraciət edilsin, ixtiyarlarında bulunan şeyləri istəsinlər. Olar ki, bəzi şeylər töhfə namı ilə müzəyə məccani [pulsuz] göndərilsin. Ziqiymət [bahalı] şeyləri də müəyyən qiymətlə hökumət ixtiyarına ala bilər. Böylə şeylərə sərf edilən paralar qiyamətədək baqi və faydalıdır. Bu kimi xərclərdən qorxmamalı.

Hərgah axtarılan şeylər arasında bir dənə “panavat” sikkəsi tapılarsa, bu hamısından gözəl olardı. Zira bu puldan heç yerdə qalmamışdır.

Məlum olduğu üzrə, Pənah xan təsis etdiyi qalanın namına “panavat” (Pənahabad) adlı bir gümüş pul kəsdirmişdi ki, İran cəhətinə də keçib, orada da bir şöhrət qazanmışdı. Qarabağın qocaları hələ indi də 15 qəpiklik rusun gümüş puluna “panavat” deyirlər. İştə, Yekaterina pulları əvəzində “İstiqlal müzəsi”nə “panavat”larımızı cəmləyə bilsək, istiqlal uğrunda da ciddü cəhdimizi sübut etmiş olarız.

*Fərhad Ağazadə*

## TƏBİİ SƏRVƏTLƏRİMİZ

### -3-

Azərbaycanımızın Ucardan başlayıb Ləki, Gəncə və Ərəş tərəfləri, sonra Quba mahalının Qızılburundan başlayıb Dəvəçi, Xaçmaz, Xudat və Yalamaya qədər olan tərəfləri təbiətin bizə bəxş etdiyi xüdayi-nabit [əkilmədən, öz-özünə bitən] biyan kökləri ilə doludur.

Məmləkətimiz daxilində öz-özünə bitən bu mənfəətli kökdən biz azərbaycanlılar nə istifadə ediriz, nə mənfəət götürürüz? Heç!..

Və bəlkə, bilməməzliyimizdən bu kimi məhsulata etina etməyib əhəmiyyətsizliklə baxmaqdayız.

Fəqət biz azərbaycanlıların əhəmiyyət vermədiyimiz bu təbii sərvətimizdən, xaricədən əcnəbilər gəlib mühüm-mühüm istifadələr etməkdə və bu üzdən milyonlar qazanıb aparmaqdadırlar.

Biyan kökü avam arasında “şirin-biyan” denilməklə məşhur otun köküdür ki, bunun kökündən qaynadıldıqdan sonra tatlı şirə hasil olur.

Keçirdiyimiz dünya qovğasından qabaq Azərbaycanımızın Ucar, Ləki, Gəncə mövqiflərində [stansiyalarında] biyan kökündən şirə hasil etmək üçün fransızlar gəlib üç yerdə biyan zavodu təsis etmişlərdi. Zavod sahibi fransızlar Azərbaycanın hər tərəfindən biyan köklərini camaat fəhlələrinə yığdırıb ucuz-ucuz zavodlarına toplayırlardı. Və burada doğrudan-doğruya kökləri qaynadıb şirəsini hasil edirlərdi.

Biyan kökündən hasil olan şirə də qamışdan hasil olan şəkərə bənzəyir və o rəngdə olur.





Fransızlar Azərbaycandakı zavodlarında hasil etdikləri biyan şirələrini içləri ağ bez ilə qaplanmış yaşiklərə qoyub vaqonlarla hər ay minlərcə pud olaraq Azərbaycandan Avropaya biyan şirəsi göndərirlərdi.

Sonra Nikolay hökuməti fransızların bundan hasil etdikləri külliyyətli mənfəətə diqqət və fikir vermiş, binaənileyh [ona görə], zavodlardan hasil edilən biyan şirəsi üçün fransızlardan ağır naloq almağa başlamışdır.

Fransızlar isə biyanın şirəsini daha Azərbaycandakı zavodlarında hasil etməmişlər. Topladıqları milyonlarca pud biyan köklərini eynilə kök olaraq vaqonlara yükləyib öyləcə Avropaya, Fransa zavodlarına şirələri çıxarılmaq üçün göndərməyə başlamışlar və böyləcə də Nikolayın ağır naloqundan yaxalarını qurtara bilmişlərdi.

1918-nci sənənin hadisatı bu zavodları da təxribata uğratmış, işdən salmışdır. Zavodlar indi təmirata möhtacdır. Təmir edilib hazırlanarsa, yenə sabiqki haldan istifadə etmək əldədir.

Zavodların işlədiyi zaman fransızların Quba mahalında, Ucar və Ləki tərəflərində sifariş verib toplatdıqları biyan kökləri hələ də oralarda yığın-yığın, tayalarla durur. O zaman biyan kökünün pudunu zavod sahiblərinə 50-60 qəpiyə qədər satırmışlar.

Yalnız Quba mahalında hər il 2-3 milyon puda qədər biyan kökü toplana bilirmiş.

Etinasızlığımızdan indi tələf və çürüməkdə olan biyan köklərindən hasil edilən şirədən hər qisim istifadə etmək mümkündür. Avropadan gətirilən şəkər və şirniyyatın bu qədər bahalıq vaxtında bu şirə bizim bir çox işlərimizə yarar.

Bu şirədən manpası, qənfet və qənnadı çörəklərinə lazım olan şirələr yapıldığı kimi, bir çox mürəbbələr yapmağa da əlverişlidir.

Bizim öz məmləkətimizin təbii sərvətindən toplayıb da avropalıların hazırlayaraq təkrar gətirib bizə ağır qiymətlərlə satdıqları bu kimi şirniləri, tatlıları öz məhsulatımızdan özümüz toplamağa, özümüz hazırlamağa səy etməli, vaxtdır ki, bundan belə biz azərbaycanlılar da zavodlar sahibi, fabrikalar sahibi olmağa həvəs edəlim, səy və cürət edəlim.

Qəflət edilməsin, Azərbaycanımızda bir çox zavodlara, fabrikalara məhsulat verəcək təbii sərvətlərimiz bol-boldur.

Haydı, Azərbaycan çalışqanlıları, fikrinizi və vaxtınızı bütün-bütünə xırdavat satmaq kimi səthi ticarətlərə sərf etməyin. Azərbaycan məhsulatını kəndiniz işlətmək, xammallarını kəndiniz hazırlatmaq üçün zavodlar, fabrikalar təsisinə başlayın. Ticarətdə ən böyük rolu cürət və zəkavət [zəka] oynayır.

Bu kimi təşəbbüslərdə Azərbaycan tacirlərinin fəaliyyəti, işə başlamaları ən artıq əhəmiyyətli olmaqla bərabər, hökumətimizin də Ərzaq və Ticarət Nəzarəti, Maliyyə Nəzarəti və dolayısı ilə Xariciyyə Nəzarəti Azərbaycanımızın xarici əlaqələrini yaxşılatmaq və mali, iqtisadi hallarını yüksəltmək üçün bəsirətli [uzaqgörən] fəaliyyətlər göstərməlidirlər.

Bu nəzarətlər məmləkətimizin məhsulatını, xammallarını hazırlayacaq zavodların, fabrikaların məmləkətimiz

daxilində təsis edilməsinə, vücuda gətirilməsinə olduqca böyük hümmətlətini, məharətlərini, fəaliyyətlərini sərf etməlidirlər.

Təbiidir ki, o halda ticarətimiz və Avropa ilə ticari əlaqəmiz üzündən Avropanın, Amerikanın hüsn-rəğbətini qazanarız. Fabrikalarımızın, zavodlarımızın çoxalması ilə əhalimizi zənginləşdirəriz. O vaxt hökumət xəzinəsi dolmağa başlar. Kağız para kəsməyə ehtiyac qalmaz. Pulumuzun etibarı isə daxilədə, xaricədə artar.

Bu kimi halları nəzərə alaraq, Azərbaycan siyasəti ilə iştiğal edən firqələrimiz dəxi buna böyük əhəmiyyət verib bu xüsusda hökumətə olduqca kömək etməlidirlər.

*N. B.*

## EHTİKAR İLƏ MÜBARİZƏ

27 təşrini-sanidə qradonaçalnikin sədarəti, dəyirmançılar, Sentrodom və "Kooperasiya" bürosu nümayəndələrinin iştirakı ilə ərzaq məsələsi haqqında bir müşavirə vüqu bulmuşdur. Müşavirə son zamanlar ən kəskin bir dövrə girmiş ərzaq böhranını zəifləşdirə biləcək tədabir tərtibi və onun həyata tətbiq edilməsi məsələsi ilə iştiğal etmişdir.

İclas qradonaçalnikin nitqi ilə açılmışdır. Qradonaçalnik nitqində göstərmişdir ki, ehtikar ilə mübarizə etmək üçün yalnız zəbtiyyə tədabiri [inzibati tədbirlər], yəni təhərrilər [axtarışlar], həbslər, mən'lər [qadağanlar] və təbidlər [qovmalar; sürgünlər] kifayət etməyib, camaat təşkilatlarının da genişcəsinə iştirak etmələri lazımdır. Ancaq camaatın kəndi fəaliyyəti ilə və ərzaq təqsimini [bölüşdürülməsini] öhdəsinə götürə bilən camaat təşkilatlarının müavinəti ilə əhalini "vasitəçi" qarətgərlər güruhi-layüflihunu [düzəlməz, adam olmaz qarətçilər kütləsi] əlindən xilas etmək mümkün olub, bazara müəyyən miqdar ərzaq tökməklə qiyməti endirmək olar. Fəqət xüsusi ticarətlər heç bir halda güldürülməməlidir.

Bə'd [sonra] qradonaçalnik həyata tətbiq edilməsi qarşıda duran tədabiri göstərmişdir. Ən əvvəl taxıl ticarəti təhti-inhisara [inhisar altına] alınaraq hökumətin əlinə deyil, dəyirmançılar bürosuna veriləcəkdir və hər yerə buraxılan un da ancaq dəyirmanlardan buraxılacaqdırlar.

Bu da get-gedə mövcud zapasın [ehtiyatın] artmasına xidmət edə biləcəkdir.

Bu təriqlə [bu yolla] azad satışda çörəyin girvənkəsinin 6 manat yarımdan yuxarı satılmamasına isabət etmək [hədəfinə çatmaq] olacaqdır. Əlbəttə, lazımdır ki, növbədə duran acların uzun dəstələri məhv edilsin və fəhlələrin hali-əsəf-iştimallarını [təəssüf doğuran hallarını] yüngülləşdirmək üçün çarələr düşünülsün. Bir çoxu gündə 24 manat həqqülzəhmət alan fəhlələr insanlıqdan çıxıb kölgə kimi qalmışlardır.

Çörək məsələsi ilə bərabər bir də ət məsələsi vardır ki, o da kəskinləşmişdir. Ətin girvənkəsi bazarda 17 manata qədər qalxmışdır. Əhalinin yoxsul qismi, füqərayi-kasibə üçün o qiymətə ət almaq mümkün olmadığından, onlar daima ətə həsrət qalırlar. Qradonaçalnik böyük balıqçılarla etilafa [razılığa] girmişdir. Onlar bazara külli, qiymətindən 40 faiz aşağı balıq buraxmağa razı olmuşlardır.





Dəyirmançılar bürosunun nümayəndəsi bəyan etmişdir ki, kanuni-əvvəlin [dekabrın] 1-dən etibarən bürodan izinsiz dəyirmanlardan un buraxılması qət ediləcəkdir [dayandırılacaqdır] və böyləliklə, ərzaq mövcud zapası beş qədər artırıla biləcəkdir.

Müzakirə zamanında məlum olmuşdur ki, hali-hazırda Sentrodomun dükanlarında hər gün 1300 pud və "Kooperasiya" dükanlarında da 650 pud çörək satılmadadır ki, cəmi gecə-gündüz də 1950 pud eyləyir.

Sentrodom nümayəndəsi bəyan etmişdir ki, gecə-gündüzdə satılmaq üçün bazara 2000 pud çörək çıxarılarsa, ərzaq böhranını zəiflədib ehtikarı azaltmaq olar.

Müzakirənin nəticəsində qərara alınmışdır ki, hər gün bişirilmək üçün çörəyin miqdarı 3000 puda qədər artırılsın. Bu şərtlə ki, Sentrodom 2000 pud və "Kooperasiya" da 1000 pud bişirsin. Əgər bu da bəs eyləməsə, bişirilən çörəyin miqdarı ikiqat artırılsın.

Ucuz balığa gəlincə, o da vətəgələrdən barkaslar [gəmilər] ilə gətirilib burada Sentrodom və "Kooperasiya" vasitələri ilə əhali içində təqsim ediləcəkdir [bölüşdürüləcəkdir].

## BAKI XƏBƏRLƏRİ

### Küçələrin tənviri

Bakı qradonaçalniki Bələdiyyə İdarəsinə müraciətlə məlum etmişdir ki, 9-cu polis müfəttişliyi pristavının məlumatına məbni [əsasən], məzkur [deyilən] dairədə olan bir çox soqaqlar tənvir edilmədiyindən [küçələr işıqlandırılmadığından], polis nəfəratı kəndi vəzifələrini layiqincə ifadan məhrumdurlar. Qradonaçalnik məzkur küçələrin tənviri haqqında lazımi tədabir ittixazını [tədbirlər görülməsini] rica etmişdir.

### Ticarət iskələsində

Türüq və Məabir Nəzarətinin [Nəqliyyat və Rabitə Nazirliyinin] Su nəqliyyatı xüsusi müvəkkili işbu məzmunda bir icbari qərardad vermişdir:

1) Bütün gəmilər, buxar, motor, yelkən gəmiləri gün çıxandan gün batanadək Bakı bargahından [yük limanından] çıxa bilərlər.

2) Bakı bargahına həmişə gəlmək olar, fəqət gün batandan sonra gələcək gəmi reyddə gün çıxanadək bəkləməlidir ki, fəqət sonra körpüyə yanaşa bilər.

3) Nargin adası ilə Bibiheybət burnu miyanında [arasında] gəzməyə hamı gəmilərə icazə verilir.

4) Yelkən və hərbi lodkalara Nargin ilə Zığ arasında gəzməyə icazə verilir.

5) İşbu icbari qərardad 1919-cu sənə bir dekabrından qüvvətini havi olur [qüvvəyə minir].

6) Qərardadi-icbarini pozanlar hərbi zaman qanunları əmri ilə cəzalanacaqlardır.

* * *

Təşrini-saninin 27-də Tibb fakültəsinin birinci kursu tələbələrinin ümumi iclası vaqe olub, starostalar seçilmişdir.

İntixab edilənlər [seçilənlər] şunlardır:

Sədr – Nərimanov, müavin – Peçorski, katib – Kazımov. Əza [üzvlər]: Xanım Hacıhəsənski, Hacıyev, Jujunov, Səfəryans. Namizədlər: Axundov, Mikeladze, Qəhrəmanov.

Yarın tarix və ədəbiyyat şöbəsində də böylə intixabat olacaqdır.

**Bədbəxt hadisə**

Srağagün təşrini-saninin 28-də gündüz saat bir radələrində Sabunçudan Bakıya gələn qatar şəhər mövqifinin [stansiyasının] deposuna yaxınlaşdığı zaman bir nəfər rus fəhləsi qatarın hərəkəti əsnasında düşmək istədiyi halda vaqonun çarxı altına düşüb füccətən [dərhal] ölmüşdür.

**Qaçaqçılarla atışma**

Təşrini-saninin 27-də Bakı polismeysterinə xəbər verilmişdi ki, Heybət mövqifi mühafizləri bir dəstə qaçaqçıları təqib edirlər.

Jandarmların müavinətinə 20 nəfər atlı mühafizə nəfəri ilə 2-ci polis dairəsi müavini Həsənov göndərilmişdi. Həsənov məhəllinə [yerinə] çatdıqda atışma kəsilmişdi.

Həsənovun dəstəsi axşam saat 9-da şəhərə qayıtdıqda rus qəbiristanı yanından keçirdi, bu vaxtda yoldan mühafizlərə atəş açılar. Bu atəşlərdən iki nəfər süvarə məcruh olmuşdur [yaralanmışdır]. Bundan sonra süvarələr atlarını buraxıb qaçmışlardır. Həsənov isə kəndini itirməyib atəş açar, bununla Həsənov kəndi həyatı ilə süvari zabit vəkilini də mühafizə etmişdir.

Məlum olmuşdur ki, 15 nəfər canilər şəhər kənarına qaçaqçılara köməyə gedirmişlər. Qaçaqçılardan bir nəfəri İsmayılxan Mirzəxan oğlu tövqif edilmişdir [tutulmuşdur]. Başqalarının tövqifi üçün tədabir ittixaz edilməkdədir [tədbirlər görülməkdədir].

## Hadisat

**Oğurluq**

- Təşrini-saninin 27-də axşam Telefonnı küçədə 3 nömrəli Kotlo Kondrateviç Konun evindən naməlum bədəfkar [cinayətkar] tərəfindən 4 dəst əlbisə və başqa ev əşyası, cümlətanı 60 min manatlıq əşya oğurlanmışdır.
- Təşrini-saninin 28-də axşam Malakanski soqaqda 24 nömrəli Rozaliya Romanovskinin evindən naməlum əşxas [şəxslər] tərəfindən əlbisə, camaşır və gümüş əşya, cümlətanı 58.400 manatlıq əşya oğurlanmışdır.

Oğruların və əşyanın bulunması üçün polis tərəfindən tədabir ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

**Məstlik**

Təşrini-saninin 28-də Malakanski soqaqda baqqal dükanı olan bir nəfər iranlı və Yusif Əsgərzadə sərxoş halda Brauninq tapançası ilə kəndisini yaralamışdır.

## BİRJADA

Kerenski minlik 850-1000 manata qədər, 250-lik kəndi qiymətindən 15 faiz və xırda 30 faiz əskikdir.

Nikolay 5 yüzlüyü 800-1400 manata qədər, yüzlüyü 200-280 manata qədər və xırdası 50-75 faizə qədərdir.

Türkiyə kağız lirəsi 1000 manat, imperial 875 manat, altun onluq 1150 manat və Avstriya altunu 2250 manatdır.

Gümüş manat 90 manat və xırda gümüş para 32 manatdır.

Bakı bonunun min manatı İranda 3 tümən 4 qran olmuşdur.





Susinin topu 1050 manata gedir.

Denikin parası kəndi qiymətindən 50 faiz əskikdir.

## FİRQƏLƏR VƏ CƏMİYYƏTLƏR

**"Müsavat"da**

- Lənkəran qəzasından Qızılağac köylüləri susuzluqdan mərkəzi "Müsavat"a şikayət etməklə, onlar üçün şirin su gətirilməsini rica etmişlərdi. "Müsavat" Ərazi nazirinə yazmışdı, şimdi belə cavab alınır:

1 noyabr nömrə 1390 ilə Qızılağac köyünə su aparmaq üçün mühəndis Kərim bəy Alxazov tərəfimizdən təyin edilmişdir.

- "Müsavat"ın Ağstafa şöbəsindən mərkəzə belə bir zəbt vərəqəsi [protokol] gəlmişdir:

6 noyabrda iclasımız açıldı, nəticədə istasyon evlərindən iki oda fəhlə və çocuqlarının dərs oxuması üçün hökumətdən tələb etməyi qərara aldı. Müsəlman fəhlə və çocuqlarına məccanən [pulsuz] olaraq məktəbdə Feyzulla əfəndi dərs verəcəkdir.

Mərkəz idarə bu xüsusda təşəbbüsatda bulunur.

- "Müsavat"ın Ərəb Həmyə şöbəsi orada bir məktəb açılması haqqında müraciətdə bulunmuşdur və bu xüsusda mərkəz idarə Quba qəzası xalq məktəbləri müfəttişinə istidada [xahişdə] bulunmuş, fəqət bu son günlərdə Ərəb Həmyə məktəbinə, oranın əhalisindən isimləri zeyldə müqəyyəd əşxas [adları aşağıda qeyd edilmiş şəxslər] işbu ianəni vermişlərdir:

Hacı Haqnəzər Əliəsgər oğlu - 90 manat, Məşhədi Hüseynqulu Xəlfəqulu oğlu - 1000 manat, Molla Məhəmmədmusa Zeynalabdin oğlu - 200 manat, Kərbəlayı Əjdər Əmirəli oğlu - 200 manat, Baba Səfərəli oğlu - 100 manat, Səfərqulu Meydanəli oğlu - 100 manat, Hacı Əli Güləli oğlu - 100 manat, Hacı Əliəkbər Mail oğlu - 200 manat, Kərbəlayı Məhəmmədbağır Zeynalabdin oğlu - 50 manat, Şıxəli Bədəl oğlu - 50 manat, Molla Ağababa Hacı Xəlifə oğlu - 50 manat, Əbülqasım Haqnəzər oğlu - 200 manat.

- İrəvan mühacirlərindən Rəhim İsgəndər oğlu ac olması haqqında mərkəzə müraciət etmiş və "Müsavat" onu işə qoymuşdur.

- Qars qəzasının Ağbaba nahiyəsindən "Müsavat"a zeyldəki [aşağıdakı] məlumat verilir və orada bir cəmiyyəti-xeyriyyə şöbəsinin məzlumlara imdad üçün açılması tövsiyə edilir:

*"Bu halda Qars qəzası və İrəvan vilayəti və qəzalarından Ağbaba nahiyəsinə hədsiz müsəlman qaçqınları gəlmişdir. Bunların arasında aclıq və xəstəlik şiddətli surətdə davam edir. Bir az belə gedərsə, hədsiz canlar məhv olacaqdır..."*

Bu xüsusda idarə Cəmiyyəti-Xeyriyyəyə yazmış və təşəbbüsatda bulunmaqdadır.

- Lənkərandan 14 təşrini-sani nömrə 1 ilə "Müsavat" Qadınlar şöbəsi mərkəz "Müsavat"a xəbər verir ki, orada qadınlar hüququ və tərəqqisi üçün bir "Müsavat" Qadınlar şöbəsi açılmış. Sədr Məryəm xanım və katibə Şirin xanım olmuşlar. Mərkəzi idarə onları təbrik etməklə, arzu olunan qəzetə və qeyri şeyləri də göndərəcəkdir.

**Pasportsuzluqdan**

Kaspiyski mədənində çalışan Həsən Fərzəli oğlu nam [adlı] fəhlənin pasportu itmiş olduğundan, məzkur [adı çəkilən şəxs], mədəndən ixrac edilmişdir. Məzkur fəhlənin işdən qoğul[ma]ması üçün "Müsavat"ın Mürafiə-Müsalihə [Məhkəmə və Barışıq] şöbəsi Balaxanı-Sabunçu qalabəyisinə müraciətən Həsən Fərzəli oğluna pasport verilməsi haqqında lazımi təşəbbüsatda bulunmuşdur.

**Firqə qurultayına**

2-6 dekabrda vaqe olacaq "Müsavat"ın firqə qurultayına Bakı şəhəri müsavatçıları tərəfindən zeyldəki [aşağıdakı] şəxslər intixab edilmişlər [seçilmişlər]:

1. Seyid Zərgər, 2. Kərbəlayı Vəli Mikayılzadə, 3. Əbdülvahab Məhəmmədzadə, 4. Seyid Hüseyn Sadiq, 5. Əliyusif Cəlalzadə, 6. Qulam Şərifzadə.

Sabunçudan:

1. Səməd bəy Əliisgəndərzadə, 2. Mehdiqulu Mehdizadə, 3. Ağabala Məcidzadə, 4. Seyfulla Əzimzadə.

Binəqədi şöbəsi tərəfindən:

1. İshaq Axçura oğlu, 2. Piri Mürsəlzadə, 3. Musa Axundzadə, 4. Novruz Ağazadə.

Buzovna şöbəsi tərəfindən:

1. Hacı İsgəndər Abuzərzadə, 2. Feyzulla Feyzulla oğlu, 3. Şəkərəli Əliyev, 4. Şirəli İrqəli oğlu.

Bibiheybət şöbəsindən:

1. Hüseyn Müzəffərov, 2. Süleyman Altunbayev, 3. Baladadaş Vəlizadə.

Əmirhacıyan şöbəsindən:

1. Sadıq Bahadırlı.

Xanqışlaqdan:

1. Məhəmmədzadə Mirzəbala, 2. Seyidhüseyn Haşım, 3. Mirhəsən Münsif, 4. Nurməhəmməd Nurizadə.

Bülbülə şöbəsindən:

1. İzzətulla Şərifzadə, 2. İsgəndər Hüseynzadə.

**Tağıyev fabrikasında**

Noyabrın 27-də "Müsavat" firqəsi idarəsində Tağıyev fabrikasında çalışan müsəlman əmələlərinin ümumi iclası vaqe olmuşdur. İclasda bahalıq məsələsi və bununla əlaqədar olan bu vaxta kimi fabrika müdiriyyəti tərəfindən saxlanan 75 faiz pribavka [artım] məsələsi müzakirə edilib, əmələlər qərar qoymuşlardı ki, müdiriyyət 75 faiz artıqlığı verməsə, onlar tətil elan edəcəklər.

İclası idarə edən Cavad bəy Məlik-Yeqanov və məclisdə iştirak edən Hüseyn Müzəffərov, Yusif İbrahimli, Abbasqulu nitqləri ilə fəhlələri sakit edib əvvəlcə hökumətə müraciət etməyi, əgər bir şey çıxmasa, sonra qəti tədbir ittixazına girişməyi məsləhət etmişlərdir.

Nəticədə iclas hökumətə müraciət etməyi qərara almışdır.

Hökumət ilə müsahibə nəticəsində Ticarət, Ərzaq Nəzarəti Tağıyev fabrikası müdiriyyətinə böylə bir məktub yazmışdır:

*"Bizdə olan məlumata görə, fabrikanızda çalışan əmələlər bu gündən etibarən tətilə müraciət etməyi qərara almışlar. Səbəbi də sentyabrın 1-dən məvaciblərin üzünə əlavə olunmuş 75 faiz əlavəni vermədiyinizdəndir. Bunu da cənabınıza məlum ediriz ki, həman 75 faiz Ticarət-Ərzaq Nəzarəti və Maliyyə-İqtisadi Komisyonu tərəfindən də qəbul edilib, avqustun 1-dən fabrikadan əmələ gələn malların üzərinə əlavə edilmişdir. Ona görə fəhlələrin zəhmətləri üzərinə də əlavə edilməlidir.*

*Həman layihə Maliyyə-İqtisadi Komisyon[u] tərəfindən Şurayi-Vükəlanın [Nazirlər Kabinetinin] bugünkü iclasına təsdiq üçün təqdim edilmişdir."*





## CƏMİYYƏTİ-XEYRİYYƏDƏ

**Zərgərlər Təşkilatından**

Bakı Zərgərlər Təşkilatı tərəfindən Müsəlman Cəmiyyəti-Xeyriyyəsinə qaçqınlar nəfinə [xeyrinə] olaraq Kərbəlayı Sultan Əlizadənin vasitəsilə 10.100 manat ianə varid [daxil] olmuşdur.

**Buxara qaçqınları**

60 nəfər Buxara qaçqınlarına Həsənqulıya getmək üçün Cəmiyyəti-Xeyriyyə tərəfindən 3.762 manat yol xərci verilmişdir.

**Bir piyalə çay məclisi**

Cümə günü, təşrini-saninin 28-də Cəmiyyəti-Xeyriyyə tərəfindən qaçqınlar nəfinə [xeyrinə] olaraq təşkil edilmiş çay məclisinə təşrif gətirən əşxasa [şəxslərə] Cəmiyyəti-Xeyriyyə tərəfindən izhari-təşəkkür edilib, çox əfsuslar olur ki, dəvət olunan və bu məclisdən müxbir [xəbərdar] olan əşxasın bir çoxu qaçqınlara müavinət etmək üçün bu məclisə təşrif gətirməmişlərdi.

Məclisdən hasil olan mədaxilin surəti qəzetə vasitəsilə xəbər veriləcəkdir.

**"Tərəqqi" Maarif Cəmiyyətində**

Cəmiyyəti-Maarifi-İraniyyan "Tərəqqi"nin yeni bir Nəşriyyat şöbəsi təşkili üçün cümə günü İran ziyalıları İttihad mədrəsəsində təyin edilmiş ümumi iclaslarında şöbə üçün mükəmməl bir nizamnamə tərtib verilməsi üçün 7 nəfərdən ibarət bir komisyon intixab etmişlərdir.

**İclas**

Təşrini-saninin 30-da yekşənbə [bazar] günü axşam saat 4-də ikiminci gimnaziya binasında İttifaqi-mütəalliminin [Şagirdlər İttifaqının] idarə iclası vüqu bulacağı elan olunur.

## AZƏRBAYCANDA

**Gəncədən**
**"Qaçqınlara Köməkçi Cəmiyyəti"**

Qəzetələrdə də oxunduğuna görə, bütün Azərbaycanda olduğu kimi Gəncədə də qaçqınların halı olduqca ağır idi.

Hökumətin milyonlarla sərf etdiyi paradan nəticə etibarilə bir şey meydana çıxmayırdı. Hökumət məmurları əski qaçqınlara heç yardımda bulunmadığı halda, yenidən qaçqınlar gəlməkdə idi.

Hasili, gündən-günə sayı çoxalan qaçqınların dolanacağı Allah ümidinə qalmışdı. Gəncə və qəzası səfalətzədələrlə dolmuşdu.

Ən nəhayət, gec də olsa, gəncəlilərin həmiyyəti qələyana [cuşa] gəldi.

Təşrini-saninin 5-ndən etibarən burada bir "Qaçqınlara Köməkçi Cəmiyyəti" təsis etdi.

Cəmiyyətin məqsədi hökumətin təmin edəmmədiyi qaçqın ehtiyaclarını əlindən gəldiyi qədər ödəməkdir.

Sonra qaçqın tələfatının önünü almaqla, əlimizə sağlam çoluq-çocuğun həyatlarını qazanmaqdır. Cəmiyyət möhtac olanlara müavinət etməklə bərabər, çalışa bilən qaçqınlara da iş bulmaqla yardımda bulunacaqdır.

Cəmiyyətin nizamnaməsi təb’ə [çapa] verilmişdir. Bu günlərdə təb’dən çıxmalıdır.

“Qaçqınlara Köməkçi Cəmiyyəti”nin təşəkkül etdiyi gündən bu günə qədər topladığı ianə 1 milyon yarım miqdarındadır. Bundan əlavə, Gəncənin bəzi məhəllələrindən daha ianə toplanmamışdır. Anlaşıldığına görə, yekunu 2 milyonu keçəcəkdir. Cəmiyyət ianə verən cənabların adlarını qəzetədə elan edəcəkdir.

İş etibarilə də cəmiyyət yavaş-yavaş çalışmaqdadır. Əvvəlkinə nisbətən Gəncədəki qaçqınların halı bir az da olsa, yaxşılaşmışdır.

İanə verənlərin ianə verdiyi vaxt göstərdiyi mərdlik bizi çox sevindirir. Cəmiyyətin hər bir hərəkəti ilə bütün millət əlaqədar olduğu üçün toplanan ianələr yerində sərf olunmaqdadır.

3-4 yüz qadın çalışdırmaq üçün qaçqınlara məxsus olmaq üzrə bir emalatxana açılmaq üzrədir.

Azərbaycanın sair şəhər və qəsəbələrində də böylə cəmiyyətin təşəkkülünü arzu edib, Allahdan kəndilərinə müvəffəqiyyətlər diləriz.

**Şəhidlər abidəsi**

Azərbaycanı qurtararkən yolumuzda canını verən qardaşlarımıza Gəncənin yaylağı Hacıkənddə bir abidə tikdirmək üçün əvvəlcə ianə toplanmışdı.

Bu günlərdə başda Cəmiyyəti-Xeyriyyə sədri Məşhədi Əli Rəfizadə bulunduğu halda, heyəti-məxsusə tərəfindən Hacıkənddəki abidənin binası vəz edildi [qoyuldu]. Abidə qəsəbənin gözəl bir yerində olduğu kimi, tərzi-memarisi də bəyəniləcək bir şəkildədir.

Daha böyük bir abidənin Gəncə şəhərində təsisi əvvəlcə qərara alındığı və Sənətkarlar İttifaqı başda olduğu halda xüsusi bir heyət tərəfindən bir an əvvəl tikilməsi qərara alınmışkən, nədən[sə] şəhərdəki abidə gecikdi. Biz arzu edərdik ki, indiyə qədər abidənin planı deyil, özü yapılmalı idi. Hər halda, bir təmənnamız vardır, o da abidənin tez meydana gətirilməsidir.

**Gəncə qəzasının təqsimi [bölünməsi]**

Daxiliyyə nazirinin əmrinə görə, Gəncə qəzası Şamxor və Gəncə qəzaları olmaq etibarilə iki qəzaya bölünmüşdür. Birincinin mərkəzi Zəyəm, ikincinin mərkəzi isə Gəncə şəhəridir. Gəncə qəzasını böylə bölməkdə hökumət isabət [düzgün] etmişdir.

**Stepan Lalayevin axırı**

Gəncə həbsxanasında məhbus olan məşhur “Styopka” xəstələnib üç gün bundan əvvəl həbsxanada ölmüşdür.

**“Müsavat”da**

“Müsavat”ın Gəncə şöbəsi tərəfindən bu günlərdə Gədəbəydə bir şöbə açılmışdır. Bunlardan əlavə, 3-4 köydə dəxi şöbələr açılmışdır. Bu günlərdə bir iclasi-ümumi çağırılıb, əhvali-hazirədən məlumat verildi, sonra firqə qurultayına nümayəndələr intixab edildi [seçildi].





**Qubadan: Bələdiyyə intixabatı haqqında**

*(Xüsusi müxbirimizdən)*

Quba sərvəti-təbiiyyəsinə və qayət münbit və məhsuldar torpağına baxmayaraq, söyləyə bilərəm ki, birinci evinin əvvəlinci daşı qonulandan bu ana kimi nə kəndisi eyi bir gün görmüş və nə əhalisi rifahi-hal ilə yaşaya bilmişdir... İşbu qəzada, yəni məhsuldar bir torpaq üzərində rifahiyyət fiqdanına [yoxluğuna] səbəbiyyət verən bir çox amillərdən biri və bəlkə də, başlıcası Qubada ziyalı qüvvələrin yoxluğu və az-çox olanlarının da əsəri-həyat [canlılıq] göstərməmələri olmuşdur. Həyati-ictimaiyyənin baş əsəbi (nervi) sanılan camaat müəssisələri daima Qubada vəzifələrini anlamayanlar və camaat, millət mənafeyini düşünməyənlər əllərində qalmışdır. Camaat müəssisəsi namına Quba şəhərində yalnızca bir bələdiyyə məclisi vardır ki, orada camaat müqəddəratını “həll” edən əfəndilər daima qalın qafa hacılardan və adamcıl qoçulardan ibarət olmuşdur. O ağaların göstərdikləri xidmət ancaq şəhərin var yerlərini kəndi xüsusiyyətlərinə keçirmək və qəsb (zaxvat) təhalükü [arzusu] yolunda olmuşdur ki, şimdi bir qarış da olsa, şəhər üçün açıq və azad yer qalmamışdır. Çürük çar istibdadının devrilməsi ilə əfkari-ammədə vüqu bulan təbəddülat [ictimai fikirdə meydana gələn dəyişikliklər] sayəsində Quba ətalətinin alt-üst olacağını zənn edənlər vardı. Fəqət, məəttəəssüf [təəssüf ki], yenə əski qafalılar və xəncərli qoçular meydangir olub çalışmaq üçün can atan yeni qüvvələrə fürsət buraxmadılar. İnqilabdan sonra seçilmiş, daha doğrusu, hacıların və qoçuların arzusuna müvafiq bələdiyyə üzvü yapılmış ağalar şəhər üçün təmirat naminə bir iş yapmadıqları kimi, camaat üçün də bir yenilik əsəri göstərmədilər və göstərəmmədilər. Pud vergisindən yüz minlərcə hasil olan gəlirin nərəyə sərf olunduğu bir Allahdan başqa heç kəsə məlum deyildir. Şəhər əczaxanasında əlac bulunmadığından xəstəsi olanlar minlərcə para sərf edərək Bakıya getməyə məcbur olurlar. Nöqsanlar saymaqla bitəsi deyildir. Mən bu xüsusda uzun-uzadı danışmaq istəməyib, ancaq vətəndaşlarıma yeni intixabat münasibətilə bir neçə kəlmə ərz etmək istəyirəm.

Qardaşlar, artıq qəflət zamanı keçmişdir. Hər işdə “bəmənçe” [mənə nə] demək vaxtı deyildir. Tarixin səhifələrinə gömülmüş rus istibdadı ilə məa [birgə] mənhus ətalət və durğunluq dəxi hər tərəfdə tükənmişdir. Yalnız biz nə üçün bədbəxt olalım? Şimdi çalışmaq zamanıdır. Həmdülillah, dövlət özümüzün, hökumət özümüzün, bizə mümaniət [maneçilik] edəcək bir amil ortada yox. Qoçuların xəncərindən qorxmayınız, işə yarar adamlar seçiniz. Həmdlər olsun, ziyalı cavanlarımız artıq xalqdan qaçmaq istəməyirlər. Onların həvəslərin söndürməyiniz. Qərəzi-şəxsiyə qapılıb öz mənfəətinizə və ümumi camaat mənfəətinə balta çalmayınız. Onu bilməlisiniz ki, son peşimanlıq fayda verməz.

*Türkoğlu*

## GÜRCÜSTAN XƏBƏRLƏRİ

**Miralay Haskell**

İstanbul qəzetələrindən "Renessans" 16 təşrini-sanidən xəbər verir:

*"Ermənistan və Gürcüstan arasında Amerika tərəfindən göndərilən əmtəə və ərzağın təqsiminə [bölüşdürülməsinə] nəzarət etmək üçün Haskell Tiflisə övdət edəcəkdir [qayıdacaq]."*

**Ermənistan hökuməti rəisi**

Srağagün gündüz saat 2 radələrində Ermənistan hökuməti rəisi Xatisov Qarakilsə-Dilican təriqi [yolu] ilə İrəvana əzimət etmişdir [getmişdir]. Xatisovu müşayiət etməyə Xariciyyə naziri müavini [Nikolay] Kartsivadze, Türüq və məabir [Nəqliyyat və rabitə] idarəsinin direktoru Çxeidze, Gürcüstanın Ermənistandakı nümayəndəsi [Gerasim] Maxaradze, general [Foma] Nazarbekov, Ermənistanın Gürcüstandakı nümayəndəsi Yevanqulov və başqaları vağzala gəlmişdilər.

**Ermənistan ordusu ehtiyacı üçün**

Miralay [polkovnik] Reyin bəyanatına görə, Ermənistan hökuməti sədrinə Ermənistan ordusu ehtiyacından ötrü miralay Rey tərəfindən 20 min odeyal və isti əlbisə veriləcəkdir.

**Amerika Dəmiryol Komissiyası**

Mövsuq [etibarlı] mənbələrdən xəbər verirlər ki, yaxın zamanda Cəmahiri-Müttəfiqə [Birləşmiş Ştatlar] cəmiyyətləri kompaniyası tərəfindən təşkil edilən Amerika mühəndislərindən ibarət bir komissiya Tiflisə varid olacaqdır [gələcəkdir]. Bu komissiya Qafqaziyada dəmiryol işləri vəziyyətini tədqiq və təhqiq edib, qabaqcadan hazırlanmış iqtisadi plan üzrə yeni dəmiryol xəttləri inşası üçün lazımi çarələr axtaracaqdır.

**Bolşevik çıxışlarının təsviyəsi [aradan qaldırılması]**

Gürcüstan hökumətinin 27 təşrini-sani[də] nəşr etdiyi rəsmi məlumata nəzərən, təşrini-saninin 10-25-nə qədər axırıncı bolşevik çıxışlarında iştirak edənlər hərbi məhkəmə qərarı ilə 9 nəfəri güllələnməklə edam edilmişlərdir.

## İZHARİ-TƏŞƏKKÜR

Möhtərəm müdir əfəndi!

Təvəqqe olunur, aşağıdakı bu bir neçə kəlmə razılıq sözlərimə möhtərəm qəzetəniz sütunlarında yer verəsiniz.

Qazax mahalının qubernatorunun köməkçisi Əhməd Abbasov cənabları öz xatuni-möhtərəmələrinin vəfatı münasibətilə Qazax Darülmüəllimin mütəəllimlərinin biçizlərinə [Qazax Seminariyası şagirdlərinin yoxsullarına] ianə olaraq 2 min manat vermişdir. Və əlavə, darülmüəlliminin özünə də 5 baş qoyun ianə etmişdir.

Bu cənabdan başqa, Qazax əhalisindən Məşhədi İsmayıl Həsənzadə taxılın bu bahalığında darülmüəlliminin qeydinə qalıb və bununla özünün maarifpərvərliyini göstərib, məktəbimizə ucuz qiymətdən 400 puda kimi taxıl buraxmışdır.

Hər iki zatdan [şəxsdən] səmimi-dildən [səmimi-qəlbdən] razılıq edib, cənabi-Haqdan onlara tövfiq [Allahın köməyini] və səlamətlik diləriz. Və bunlar çox sağ və var olsunlar.





Əlavə, birinciyə öz əziz yoldaşının itkisində cənabi-Allah səbri-cəmil əta buyursun.

*Qazax Darülmüəllimin müdiri*
*F. Köçərli*

**Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək. Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Berlin Darülfününu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları. Qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri.

Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*11449*

**Elan**

Təxminən bir ay bundan əqdəm [qabaq] Suraxanı əhillərindən Yusif Pəncəli oğlu öz həmkəndlilərindən birisi ilə Nuxa qəzasının Həşəmköylü kəndi sakinlərindən iki qardaş Bayram və Oruc Əli oğlanları tərəfindən onlara mal satmaq bəhanəsi ilə Həşəmköy kəndinə aparılmışlardır. Sonradan anlaşıldığına görə, iki qardaşlar Yusif ilə yoldaşını öldürmək istəmiş və bunlardan birisi qaçıb xilas olmuşdur. İndi ümum Azərbaycan vətəndaşlarından bunları görüb və həman adamları tanıdıqda hökumət ixtiyarına vermələri rica olunur.

*Kərbəlayı Dadaş*
*14096*

***Müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Sirk "Modern"**

səh. 621. "Güləşməyin axırıncı günü": qəzetdə "axırıncı" sözü iki dəfə getmişdir.

**Cümə günkü müxtəlif xəbərlər**

səh. 629. "Strumçe": Şimali Makedoniyanın Strumitsa şəhəri nəzərdə tutulur.

"Tsaribrod": Şimali Makedoniyanın cənub-şərqində, Bolqarıstan sərhədi yaxınlığında yerləşən indiki Dimitrovqrad şəhəri nəzərdə tutulur.

"admiral Tanaka": qəzetdə soyadı təhrif edilmişdir.

"Vahba paşa": qəzetdə "Vahab paşa" getmişdir.

**Dağıstanda**

səh. 630. "Rukel": Dağıstanın Dərbənd rayonunun kəndi.

"Kemax": Dağıstanın Dərbənd rayonunda kənd olmuşdur; hal-hazırda mövcud deyil.

**Vükəla Şurasında**

səh. 631. "Təsadüfi mədaxil 199.999.000 manatla azaldılsın.": güman ki, "azaldılsın" yerinə "artırılsın" olmalı idi.

**Milli müzəmiz**

səh. 633. *"Ze məncəniğe-fələk əbre-fitnə mibarəd / To əbləhane gerefti miyane-şişe həsar"*: "Fələyin mancanağından fitnə buludu yağır, sən axmaqcasına şüşə arasında hasar tutmusan." (farsca)

*"Gər negəhdare-mən anəst ke mən midanəm / Şişera dər bağəle səng negəh midarəd"*: "Əgər məni qoruyan mənim tanıdığımdırsa, şüşəni daşın qoltuğunda da qoruyar." (farsca)

Farsca beytləri Akademik Teymur Kərimli oxumuş və tərcümə etmişdir.

Akademik Teymur Kərimlinin qeydi:

"Birinci beyt Firdovsiyə deyil, Qacarla birgə gəlmiş saray şairinə məxsusdur və əsli belədir:

*Ze məncəniğe-fələk senge-fitnə mibarəd*
*To əbləhane gerefti miyane-şişe qərar*

Yəni:

Fələyin mancanağından fitnə daşı yağır
Sən isə axmaqcasına şüşənin arasında dayanmısan."

səh. 633. "Şah Abbas məscidinin səhnində": qəzetdə "səhnində" yerinə "səhnəsində" getmişdir.

**Ehtikar ilə mübarizə**

səh. 637. "beş qədər artırıla biləcəkdir": güman ki, "beş qədər" yerinə "bəs qədər" olmalı idi.

**Bakı xəbərləri**

səh. 638. "Telefonnı küçə": Bakıda, indiki 28 May küçəsi.

"Malakanski soqaq": Bakıda, indiki Xaqani küçəsi.

**Cəmiyyəti-Xeyriyyədə**

səh. 641. "Həsənqulı": Türkmənistanın Balkan vilayətində, Xəzər dənizi sahilində şəhər; indiki Əsənqulı şəhəri.

**Gürcüstan xəbərləri**

səh. 644. "Yevanqulov və başqaları": qəzetdə belə getmişdir: "Yevanqulov ilə və başqaları".





# ADLAR GÖSTƏRİCİSİ


Abbas: Ermənistan ərazisində azərbaycanlıların özünümüdafiə dəstələrinin təşkilində iştirak etmişdir. 166

Abbas Bayram oğlu. 278

Abbas Haşım oğlu: Bakıdakı Qars qaçqınlarından. 220

Abbas Mirzə (1789-1833): Qacar taxtının vəliəhdi; Fətəli şah Qacarın oğlu. 401

Abbas Mirzə Fərmanfərma (Salari-ləşkər; 1890-1935): İranın siyasi xadimi; Ədliyyə naziri olmuşdur. 127, 465

Abbasəli Rza oğlu: Balaxanada fəhlə olmuşdur. 47

Abbasqulu: fəhlə hərəkatının fəal iştirakçısı. 640

Abbasquluzadə, Həsən: "Müsavat" partiyasının Əhmədli kənd şöbəsinin katibi olmuşdur. 48

Abbasov, Əhməd: Qazax qubernatorunun köməkçisi. 644

Abbaszadə, Abbas (Mirzə Abbas; yaxud A. Mollazadə; 1870-1920): Azərbaycanlı pedaqoq və folklorşünas. Azərbaycan məktəbləri üçün dərsliklər qələmə almışdır. Bəzi əsərlərində "A. Mollazadə" imzasından istifadə etmişdir. Gəncə Müsəlman Xeyriyyə Cəmiyyətinin və Gəncə Türk Müəllimləri İttifaqının üzvü olmuşdur. 44, 80, 109, 222, 223, 224, 227

Abbaszadə, Mirzə Abbas: bax. Abbaszadə, Abbas.

Abbaszadə, Mirzə Əhməd: Bakı sakini. 535, 560, 589

Abbaszadə, Yusif: Bakı sakini. 535, 560, 589

Abdulla (Məşhədi Abdulla): çayçı. 611

Abdulla əl-Məazi: bax. Əl-Məazi, Abdulla.

Abdulla Rəhim oğlu (Hacı Abdulla): Bakı sakini. 161

Abdullayev, Asəf: Bakı sakini. 221

Abdullayev, Ələsgər (yaxud Şəkili Ələsgər; 1866-1929): Azərbaycan xanəndəsi. 257, 366

Abdullazadə, Həsən Səbri: Azərbaycan aktyoru. 167, 196

Abuzər Almas oğlu: Könüllü Təşkilatının üzvü. 193

Abuzərzadə, İsgəndər (Hacı İsgəndər): "Müsavat" üzvü; "Müsavat"ın 1919-cu il dekabr qurultayının Buzovnadan nümayəndəsi. 640

Adamov, N.: Bakıda kantoru olmuşdur. 253, 342, 368

Adamov, S.: Bakıda kantoru olmuşdur. 253, 342, 368

Adil bəy (1865-1932): Osmanlı dövlətinin siyasi xadimi. İki dəfə (1909, 1919) Daxili işlər naziri olmuşdur. 44

Ağa Əli (? - 1919): İran Demokrat firqəsinin liderlərindən. 465

Ağa Rzaqulu oğlu: "Tula" gəmisində sükançı olmuşdur. 162

Ağa Zeynalabdin oğlu (Kərbəlayı Ağa Molla Zeynalabdin oğlu). 106

Ağababa Xəlifə oğlu (Molla Ağababa Hacı Xəlifə oğlu): Quba qəzasının Ərəb Həmyə kəndinin sakini. 639

Ağababa Rza oğlu: Bakıda neft mədənində fəhlə olmuşdur. 557

Ağabala Qulam oğlu. 614

Ağabəyov, Rza bəy (1894-1961): Göyçayda anadan olmuş, Moskvada hüquq təhsili almışdır. Göyçaydan Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmiş, "Müsavat" fraksiyasının üzvü olmuşdur. 114, 115, 174, 175, 176, 177, 350, 377, 625

Ağacanov, Cəbrayıl: Bakı sakini. 221

Ağaəli Gülmirzə oğlu. 614

Ağaəliyev, İsmayıl: Bakı sakini. 221